Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA Məktəbəqədər və ümumi təhsil üzrə dövlət agentliyi
birbank

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

**Ad** ______________________ **Soyad** ______________________

# 8-ci sinif
# COĞRAFİYA
## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1.** Cədvələ əsasən uyğun xüsusiyyətləri seçin.

| № | Saat qurşağı | Xüsusiyyətlər |
|---|---|---|
| 1 | XXIV | Üç materiklə kəsişir. |
| 2 | XII | Yalnılz Qərb yarımkürəsində yerləşir. |
| 3 | VI | Kəsişdiyi materiklər üç yarımkürədə yerləşir |
| 4 | IX | Bakı şəhərində 22 mart saat 21:00 olanda, bu qurşaqda 23 mart tarixidir. |
| 5 | XX | Dörd yarımkürədə yerləşir |
| 6 | I | Qərb sərhədi ilə Bakı şəhəri arasındakı ən qısa məsafə 4717,5 km-dir. |

A) 1, 3, 5 B) 2, 4, 6 C) 1, 3, 4 D) 1, 2, 3 E) 4, 5, 6

**2.** Uyğunluğu müəyyən edin.

I-Mülayim işıqlanma qurşağı
II-Qütb işıqlanma qurşağı
III-Tropik işıqlanma qurşağı

a. Şaquli cisimlərin kölgəsi ildə iki dəfə sıfra bərabər olur.
b. Gecə və gündüzün adi növbələşməsi pozulur.
c. Bütün hissələrində günəş şüalarının günorta vaxtı maksimum və minimum düşmə bucaqları arasındakı fərq 47° olur.
d. Üç materikin ərazisində yerləşir.
e. Dünyanın konus proyeksiya ilə tərtib olunan xəritəsində sıfır təhrifli xətt keçir.

A) I-a, b; II-c, d; III-e
B) I-a, e; II-b, c; III-d
C) I-b, e; II-c, d; III-a
D) I-c, e; II-a, b; III-d
E) I-c, e; II-b, d; III-a

**3.** 22 iyunda günorta vaxtı eyni meridian üzərində yerləşən iki məntəqədə eyni anda günəş şüaları 55° bucaq altında düşür. Məntəqələr arasındakı ən qısa məsafənin 1: 14 000 000 miqyaslı xəritədə neçə santimetr olduğunu müəyyən edin.

A) 55,5 B) 22,5 C) 36,4 D) 48,6 E) 62,5

**4.**Passat küləkləri üçün doğru fikirləri müəyyən edin.

A) Bütün materiklərdə müşahidə edilir.
B) Cənub yarımkürəsində sağa meyil edir.
C) İstiqamətini ildə iki dəfə dəyişir.
D) Labrador və Somali yarmadaları üçün səciyyəvidir.
E) Tropik enliklərin yüksək təzyiq sahəsindən ekvatorial enliklərin alçaq təzyiq sahəsinə doğru əsir.

**5.** Sxemə göstərilən atmosfer hadisəsinə əsasən doğru fikirləri müəyyən edin.



A) Cənub yarımkürəsi üçün xarakterikdir.
B) Alçaq təzyiq sahəsidir.
C) Daxil olduğu əraziyə bol yağıntı gətirir.
D) Yüksək təzyiq sahəsidir.
E) Yalnız Günəşin zenitdə olduğu ərazilərdə formalaşır.

**6.** Kür tektonik çökmə zonası üçün xarakterikdir:

1. Mülayim-isti iqlimə rast gəlinmir.
2. Qanıx və Qabırrı çaylarının mənsəbi yerləşir.
3. Mütləq hündürlüyü 200 metrdən çox deyil.
4. Neft və gil faydalı qazıntı ehtiyatlarına rast gəlinir.
5. Şəki və Qax inzibati rayonları yerləşmir.
6. Yovşan və kəngiz kimi bitkilərə rast gəlinir.

A) 1, 3, 5 B) 2, 4, 6 C) 3, 4, 6 D) 2, 3, 5 E) 1, 4, 6

**7.** Eyler-Venn diaqramına əsasən materiklər üçün uyğunluğu müəyyən edin




a Aid olduqları litosfer tavalarının divergent sərhədində Müqəddəs Yelena adası yerləşir.
b. Qütb ulduzu (Polaris) görünür.
c. İlboyu günorta vaxtı Günəş zenitdədir.
d. Üç işıqlanma qurşağında yerləşir.
e. Müəyyən hissəsi mülayim iqlim qurşağında yerləşir.

A) 1-e; 2-d; 3-a
B) 1-b; 2-c; 3-a,d
C) 1-e; 2-a,d; 3-b
D) 1-a,c; 2-b, d; 3-e
E) 1-c; 2-d; 3-a,b

**8**. İƏT (ECO) təşkilatına üzv ölkələr.

1. İran  2. Gürcüstan  3. Türkiyə
4. Moldova  5. Pakistan  6. Ukrayna

A) 3, 4, 5  B) 1, 5, 6  C) 1, 3, 5  D) 2, 3, 6  E) 1, 2, 4

**9.** Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| S/S | İqtisadi rayonlar | Səciyyəvi əlamətlər |
|---|---|---|
| 1 | Quba-Xaçmaz | Tərkibində 9 inzibati rayon var. |
| 2 | Dağlıq Şirvan | Xarici ölkə ilə həmsərhəd deyil. |
| 3 | Gəncə-Daşkəsən | Filiz faydalı qazıntılar mövcuddur. |
| 4 | Şərqi Zəngəzur | Yalnız bir xarici ölkə ilə həmsərhəddir. |
| 5 | Mərkəzi Aran | Yalnız yarımsəhra və quru çöl iqliminə rast gəlinir. |
| 6 | Naxçıvan | Mülayim-isti iqlimə rast gəlinir. |

A) 2, 3, 6  B) 1, 3, 5  C) 2, 4, 5  D) 2, 3, 5  E) 1, 4, 6

**10.** Cədvələ əsasən, uyğunluğu müəyyən edin.

| № | Ölkə | Səciyyəvi əlamət |
|---|---|---|
| 1 | Çili | Günəş zenitdə olur. |
| 2 | Türkiyə | Suriya, Livan və Bolqarıstanla həmsərhəddir. |
| 3 | Qazaxıstan | İki qitədə yerləşir. |
| 4 | Malayziya | Sahillərini iki okeanın suları yuyur. |
| 5 | Macarıstan | Adriatik dənizinin sahillərində yerləşir. |
| 6 | Finlandiya | Əhalinin əksər hissəsi Hind-Avropa dillərində danışır. |

A) 2, 3, 6  B) 2, 4, 5  C) 1, 2, 6  D) 1, 3, 5  E) 1, 3, 4

**11.** Cədvələ əsasən, uyğun sıraları müəyyən edin.

| 1. Baykal gölü | 2. Viktoriya gölü |
|---|---|
| a. Şimal Buzlu okean hövzəsində yerləşir.<br>b. Yerləşdiyi materikdə gecə və gündüzün adi növbələşməsi pozulur və Günəş 30 sentyabrda zenitdə olur.<br>c. Yerləşdiyi ölkə sahillərini Şimal Buzlu okeanının həm donan, həm də donmayan dənizləri yuyur. | a. Üç yarımkürədə yerləşir.<br>b. Yerləşdiyi materikdə ilboyu günorta vaxtı şaquli cismin kölgə uzunluğu sıfra bərabər olan məntəqələr var.<br>c. Hind okeanı hövzəsinə aiddir. |

A) 1-a, c; 2-a, b
B) 1-a, b; 2-b, c
C) 1-a, b, c; 2-a,c
D) 1-b, c; 2-b, c
E) 1-a, b, c; 2-a, b, c

**12**. Doğru ***olmayan*** fikirləri müəyyən edin.
1. Hazırda ölkəmizdə özəl müəssələrdə çalışanların sayı dövlət müəssisələrində çalışanların sayından daha çoxdur.
2. Braziliya, Meksika və Qazaxıstanda terrikon təpələrə çox rast gəlinir.
3. Böyük Qafqaz tektonik qalxma zonasında filiz faydalı qazıntı yataqları mövcud deyil.
4. Talış dağlarında dağ-tundra iqlimnə rast gəlinir.
5. Qış gündönümündə ən uzun paralel üzərində günorta vaxtı şaquli cisimlərin kölgəsi olmur.
6. Qara, Mərmərə və Baltik dənizləri coğrafi mövqeyinə görə daxili dənizlər hesab edilir.

A) 2, 4, 6 B) 1, 2, 6 C) 3, 4, 5 D) 1, 4, 5 E) 1, 3, 5

**13.** Temperaturu +30°C, nisbi rütubətliyi 42% olan 1 $m^3$ hava +10°C-yə qədər soyuyarsa kondensasiyaya məruz qalan su buxarının miqdarını qramla müəyyən edin.( Nəzərə alın ki, 1 $m^3$ hava +10° C-də maksimum 9 q; +30°C-də 30 q su buxarı saxlaya bilir).

A) 4, 2 B) 2, 5 C) 3, 6 D) 1, 8 E) 6, 4

**14.** Hansı adadan yalnız qərb istiqamətində hərəkət edən səyyah ilkin məntəqəyə çatmaq üçün daha qısa məsafə qət edər?
A) Kalimantan
B) İslandiya
C) Tayvan
D) Saxalin
E) Kipr

**15.** Ölkəmizin hansı miqyasla tərtib edilmiş xəritəsi divarda daha kiçik sahə tutar?
A) 1: 4 000 000
B) 1: 9 000 000
C) 1: 3 00 000
D) 1: 5 500 000
E) 1: 180 000

**16.** Dağın ətəyində atmosfer təzyiqi 680 mm c.s.-dur. Dağın maksimal hündürlüyü dəniz səviyyəsindən 3300 metr yüksəkdə yerləşir. Dağın zirvəsi ilə ətəyi arasındakı temperatur fərqini Faranheyt şkalası ilə müəyyən edin (Nəzərə alın ki, dəniz səviyyəsində təzyiq normaldır).

A) 56,4°F B) 35,8°F C) 69,3°F D) 48°F E) 59°F

**17.** Çevrəsinin uzunluğu 30744 km olan paralel üçün səciyyəvi əlamətlər:
1. Yalnız şimal yarımkürəsində yerləşir.
2. İki yarımkürədə yerləşən materiklə kəsişir.
3. Günəş şüalarının günorta vaxtı maksimum və minimum düşmə bucaq fərqi 48°-dir.
4. Bütün saat qurşaqlarında yerləşir.
5. Qütb dairəsinə qədər olan ən qısa məsafə ekvatora qədər olan ən qısa məsafədən azdır.
6. Kəsişdiyi bütün qitələrdə Günəş zenitdə olur.

A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 4, 6 D) 2, 3, 6 E) 2, 4, 5

**18.** Cədvələ əsasən, çaylarla bağlı uyğun ***olmayan*** fikirləri müəyyən edin.

| Kür çayı | Araz çayı |
|---|---|
| 1. Üç ölkə ərazisindən axır.<br>2. Qızılgədik dağlarından başlayır.<br>3. Göyçay inzibati rayonunun ərazisindən axır. | 4. Gürcüstan ərazisindən axır.<br>5. Bingöl silsiləsindən başlayır.<br>6. Xəzər dənizinə birbaşa tökülür. |

A) 1, 5, 6   B) 2, 4, 6  C) 1, 3, 5  D) 3, 4, 6   E) 2, 3, 4

**19.** Doğru fikirləri müəyyən edin.

1. ABŞ-də subtropik iqlim qurşağına rast gəlinir.
2. Braziliya sahillərini bir okean suları yuyur və üç yarımkürədə yerləşir.
3. Kür çayının hər iki sahilində yerləşən bütün inzibati rayonlar okean səviyyəsindən aşağıda yerləşir.
4. Belçika və İsveç monarxiya idarəetmə sisteminə malikdir.
5. Qalapaqos adaları litosfer tavalarının konvergent sərhədində yerləşir.
6. Okeanların səthindən buxarlanan suyun miqdarı düşən yağıntı miqdarından daha azdır.

A) 2, 4, 6   B) 1, 3, 4   C) 1, 2, 4  D) 1, 3, 5  E) 2, 5, 6

**20.** Yer kürəsinin sxemdəki vəziyyətinə uyğun gələn əlamətləri müəyyən edin.




1. Apennin yarımadasında gündüzün uzunluğu Skandinaviya yarımadasındakından daha azdır.
2. 68,5°şimal enliyində günorta vaxtı günəş şüalarının düşmə bucağlı 45°-dir.
3. Yalnız Şimal tropikindən şimalda yerləşən məntəqələrdə gündüzün uzunluğu 12 saatdan çoxdur.
4.Tropik işıqlanma qurşağında yerləşən bütün məntəqələrdə şaquli dirəyin kölgə uzunluğu öz uzunluğundan daha qısadır.
5.Həm Şimal, həm də Cənub qütb dairəsində gecə və gündüzün adi növbələşməsi pozulub.
6. Ən uzun paralel üzərində günəş şüalarının günorta vaxtı düşmə bucağı 60°-dir.

A) 1, 2, 5   B) 2, 4, 6   C) 1, 3, 5   D) 1, 4, 6   E) 3, 4, 5